**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT**
**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**KƏMALƏ NƏRİMAN QIZI MƏMMƏDOVA**

# TEATR MAARİFÇİLİYİ KULTUROLOJİ AMİL KİMİ

**6219.01 – Kulturologiya və onun ümumi məsələləri**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Niyazi Musa oğlu Mehdi**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **İlqar Həsrət oğlu Hüseynov**
*kulturologiya üzrə elmlər doktoru, dosent*

***Əliqismət Hümmət oğlu Lalayev***
*Ə.İ.X.,sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat**: Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu

Dissertasiyanın müdafiəsi "_25___ " "__10______" 2016-cı ildə, saat ____da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.091 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1100, Bakı, Həsən bəy Zərdabi 39[a]

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" " __________" 2016-cı ildə göndərilmişdir.

FD.02.091 Dissertasiya Şurasının elmi katibi,
kulturologiya üzrə fəlsəfə doktoru,
dosent: **F. R.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Beynəlxalq mədəniyyət təşkilatlarının proqramlarında təhsil, elm və mədəniyyətin təbliğinə geniş yer verilir, mədəni müxtəliflik və özünəməxsusluqla bağlı maarifçilik tədbirləri təşviq edilir. Bu gün də mədəni inkişaf və tərəqqi ifadələri maarifçilik anlayışı ilə yanaşı işlədilir. Əslində "bəşəriyyətin inkişaf tarixinin özünü elə maarifçilik uğrunda mübarizə təşkil edir"[1]. Ona görə də, Azərbaycan maarifçiliyinin kulturoloji məsələlərinin yeni təfəkkür kontekstində tədqiq edilməsi həm də yaşadığımız informatika və bilik cəmiyyətinin perspektiv istiqamətlərini müəyyənləşdirmək baxımından aktualdır. Müasir cəmiyyətdə cərəyan edən proseslər də maarifçilik ideyalarının, o cümlədən teatr maarifçiliyinin kulturoloji aspektlərinin araşdırılmasını aktuallaşdırır.

Cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsində, insanların bədiestetik baxışlarının formalaşmasında teatr sənəti ən qüvvətli vasitələrdən biri hesab edildiyi üçün inteqrasiya şəraitində teatrlar qarşısında qoyulan tələblər də gündən-günə yenilənməli və yaradıcılıq meyarları yüksəldilməlidir. Bu gün yüksək ideyalı, bədii cəhətdən bitkin tamaşaların yaradılması teatr kollektivləri qarşısında duran vacib və məsul vəzifələrdəndir. Bu vəzifələrin yerinə yetirilməsi kollektivə rəhbərlik edən şəxslərdən yüksək professionallıq, həssaslıq, qayğıkeşlik, kollektiv arasında təlim-tərbiyə işini düzgün qurmaq, yaradıcılıq, etik və təşkilati məsələləri vəhdətdə həll etmək bacarığı tələb edir. Çünki teatr maarifçiliyi həm də ictimai xarakter kəsb edir və dövlət mədəniyyət siyasətinin ayrılmaz tərkib hissəsidir.

Həm nəzəri olaraq çıxış və bəyanatlarında, həm də əməli olaraq göstəriş və sərəncamlarında teatr mədəniyyətinin inkişafına qayğı və diqqətlə yanaşan Heydər Əliyev "Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında", "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı haqqında", 2000-ci il iyunun 13-də isə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" və s. fərmanları ilə elm və təhsilin, mədəniyyət və incəsənətin köhnə stereotiplərdən xilas olmasını və müasir tələblərə uyğun inkişaf etməsini stimullaşdırmışdır. Onun mədəniyyət konsepsiyasının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də çıxış və bəyanatlarında, göstəriş və sərəncamlarında teatr sahəsinə qayğısını əməli surətdə təsdiqləmişdir. Onun teatr sənətinə göstərdiyi diqqətin bariz nümunəsi kimi 6 fevral 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Teatr və teatr fəaliyyəti haqqında"

---

[1] Quliyeva X. Azərbaycan maarifçiliyində fəlsəfi-etik məsələlər (XIX əsrin ikinci yarısı XX əsrin əvvəlləri). Bakı: Elm və təhsil, 2014, s.3.

Azərbaycan Respublikasının Qanununu və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramını göstərə bilərik[2]. Məhz belə bir münasibət milli teatrımızın inkişaf tarixinə dair obyektiv araşdırmaların aparılması baxımından tədqiqatçılar qarşısında geniş perspektivlər açmışdır. Dövlət başçısının imzaladığı bu rəsmi sənədlər teatr maarifçiliyi sahəsində tədqiqatların aparılmasına da stimul vermişdir.

Azərbaycan kulturoloji fikrinin qarşısında duran məsələlərdən biri də teatr sənətinin problemlərini elmi-nəzəri cəhətdən araşdırmaq, maarifçilərin teatr-estetik görüşlərini həm tarixi, həm də elmi-nəzəri aspektdə öyrənməkdən ibarətdir. Milli teatr sənətimizin inkişafına, ayrı-ayrı sənətkarların püxtələşməsinə xidmət etmiş yaradıcılıq mühitinin tədqiq edilib öyrənilməsi teatr maarifçiliyinin perspektivləri baxımından da əhəmiyyətlidir. Məhz bu səbəblərdən teatr maarifçiliyinin kulturoloji amil kimi tədqiq edilməsi mühüm aktuallıq kəsb edir.

**Mövzunun işlənilməmə dərəcəsi.** Azərbaycan dünyəvi peşəkar teatrı təşəkkül tapdığı dövrdən etibarən səhnə sənətinin xüsusiyyətləri, dramaturji material, aktyor oyunu, rejissor işi, teatrın ictimai-tərbiyəvi mahiyyətinə dair müxtəlif səpkili yazılar çap olunmuş və araşdırmalar aparılmışdır. M.F.Axundzadə, H.B.Zərdabi, N.B.Vəzirov, Ə.B.Haqverdiyev, C.Məmmədquluzadə, C.Cabbarlı, H.Cavid kimi maarifçilər və onların davamçıları Azərbaycan cəmiyyətinin yenilənməsi və mədəniləşməsi yolunda teatrın maarifçilik imkanlarını yüksək qiymətləndirmiş, teatr maarifçiliyi prosesini izləmiş, bu sahədə elmi və publisistik əsərlər yazmış, dəyərli fikirlər söyləmişlər. Azərbaycan teatrının tarixi, yaradıcılıq yolu, onun ayrı-ayrı aktyorları, rejissorları, dramaturqları, teatrın təşkilatı və yaradıcılıq işi, eləcə də teatr tənqidi ilə məşğul olan müəlliflər içərisində yalnız dramaturgiyadan yazan ziyalılar deyil, həm də müxtəlif peşə sahiblər olmuşdur. Teatrın müxtəlif problemlərini əks etdirən yazılarla çıxış etmələrinə baxmayaraq bu müəlliflər teatr maarifçiliyi işinə xidmət etmişlər.

Teatr maarifçiliyinin peşəkarlıq səviyyəsində təbliği və elmi tədqiqi baxımından Cəfər Cəfərov, Mehdi Məmmədov, İnqilab Kərimov, Mahmud Allahverdiyev, Ədilə Əliyeva, Azər Sarabski, Tamilla Yusifbəyli, Tamilla Təhmasib, Adilə İsmayılova, Məmmədşah Atayev, İlham Rəhimli, İsrafil İsrafilov, Məryəm Əlizadə, Aydın Talıbzadə kimi teatrşünasların tədqiqat əsərləri problemin xronologiya üzrə tarixi inkişaf xəttinin izlənilməsinə və

[2] "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı (Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 may tarixli sərəncamı ilə təsdiq edilmişdir). "Xalq" qəzeti, 19 may 2009-cu il, № 106 (26164); Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. "Ədəbiyyat qəzeti", 9 fevral 2007-ci il, № 5 (3548).

təhlilinə imkan verir.

Bunlardan əlavə müxtəlif elm sahələrinin təmsilçilərindən M.A.Dadaşzadə, M.İbrahimov, Ə.Sultanlı, M.Təhmasib, Ə.Şərif, M.C.Cəfərov, A.Zamanov, K.Talıbzadə, Y.Qarayev, K.Məmmədov, F.Köçərli, T.Müttəllimov, T.Əhmədov kimi bir çox alimlər teatr tarixi, ayrı-ayrı tamaşalar, rejissor işi, aktyor oyunu haqqında məqalələr çap etdirmişlər ki, bu yazılarda da teatr maarifçiliyinə dair dəyərli fikirlər yer almışdır. Əksəriyyəti filoloji aspektdən qələmə alınmış bu yazılarla yanaşı, teatr maarifçiliyi ilə bağlı mövzuların fəlsəfi-estetik cəhətdən təhlil olunduğu tədqiqatlara da rast gəlirik ki, bunların içərisində Ziyəddin Göyüşov və Xatirə Quliyevanın[3] tədqiqatları diqqətimizi xüsusilə cəlb etmişdir.

Milli teatrımızın tarixinin öyrənilməsi işində böyük əhəmiyyət kəsb edən çoxsaylı məqalə və resenziyaların, monoqrafiya və dissertasiyaların yazıldığını nəzərə alsaq, deməli, Azərbaycan teatrının yaradıcılıq yolunun tədqiq olunub öyrənilməsi sahəsində əhəmiyyətli işlər görülmüşdür. Lakin bununla belə Azərbaycan teatr maarifçiliyinin kulturoloji aspektdən dissertasiya səviyyəsində araşdırıldığı tədqiqat əsəri yazılmamışdır. Məhz bu mənada "Teatr maarifçiliyi kulturoloji amil kimi" mövzusunda dissertasiya işinin yazılması ehtiyacı yaranmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatımızın əsas məqsədi – bəşər mədəniyyətinin ən mütərəqqi mərhələlərindən biri kimi dəyərləndirilən maarifçilik hərəkatını, xüsusilə də bu fenomenal kulturoloji hadisənin ana xətlərindən birini təşkil edən teatr maarifçiliyini tədqiq etmək, öyrənmək və bu tarixi təcrübənin nəticələrindən demokratik vətəndaş cəmiyyəti quruculuğunda yararlanmaqdır.

Teatr maarifçiliyi sahəsində tarixi-kulturoloji irsin mənimsənilməsi və elmi-nəzəri qənaətlərin modern teatral proseslərə tətbiqi yollarının aranması kimi məqsədlərə nail olmaq üçün dissertasiya işində qarşıya aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

– Tarixən bəşər həyatının ictimai-sosial və mədəni təkamülünə yol açan amillərdən biri kimi teatral hadisələrin mahiyyətini açmaqla incəsənətin bu növünün tərbiyəvi xüsusiyyətlərini ümumiləşdirmək;

– Avropada təşəkkül tapmış maarifçilik hərəkatının təbliğati xarakterini tədqiq edərək teatr maarifçiliyinin bu prosesdəki yeri və roluna aydınlıq gətirmək;

– XVIII-XIX əsr Avropa maarifçiliyinin ideya-bədii və ədəbi-estetik təminatında teatr mədəniyyətinin tarixi-mədəni funksiyasını və xarakterik cəhətlərini tədqiq etmək;

[3] Göyüşov Z. Azərbaycan maarifçilərinin etik görüşləri (XIX əsrin ikinci yarısı). B., Azərb.SSR EA nəşri, 1960, 212 s.; Quliyeva X. Azərbaycan maarifçiliyində fəlsəfi-etik məsələlər (XIX əsrin ikinci yarısı XX əsrin əvvəlləri). Bakı: Elm və təhsil, 2014, 280 s.

– Azərbaycanın oyanış və ya yenilənmə dövrü kimi xarakterizə edilən XIX əsr mədəniyyətində diqqəti maarifçilik və dünyəvi peşəkar teatrın yaranması faktlarına yönəltmək, maarifçilərin teatr-estetik baxışlarının müqayisəli təhlilini vermək;

– XX əsr teatr maarifçiliyinin siyasi aspektlərini öyrənmək, əsrin əvvəllərində və Cümhuriyyət dövründə teatral proseslərin ideya-bədii istiqamətlərini müəyyənləşdirmək, Azərbaycan sovet teatrının fəaliyyətindəki ideoloji faktorları araşdırmaq, keçid dövründə teatrların üzləşdiyi problemləri sistemləşdirmək;

– Müasir teatr proseslərini elmi və pedaqoji amillər kontekstində nəzərdən keçirmək, yaradıcılıq etikası anlayışının elmi təhlilini vermək və teatr maarifçiliyinin perspektivlərini dövlət mədəniyyət siyasəti çərçivəsində dəyərləndirmək.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini teatr maarifçiliyi təşkil edir. Bu məqsədlə, tədqiqat işində tarixi, kulturoloji, fəlsəfi, filoloji və sənətşünaslıq aspektində yazılmış monoqrafik araşdırmalar, dissertasiyalar və problematik məqalələr tədqiqata cəlb edilmiş, dövri mətbuat və internet resurslarından istifadə edilmişdir. Teatr maarifçiliyinin kulturoloji bir proses kimi araşdırılması, teatral hadisələrin ümumiləşdirilmiş bir xronologiya ilə təhlil edilməsi, maarifçilik irsinin ümumbəşəri və milli-mədəni proseslər fonunda təqdim edilməsi, çağdaş və modern cəmiyyətlərin mədəni tərəqqisinə rəvac vermiş bu tarixi fenomenin kulturoloji meyarlar kontekstində öyrənilməsi tədqiqatın predmetini təşkil edir.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları və mənbəşünaslıq bazası.** Mütərəqqi bədii-estetik fikirdən, müasir kulturoloji məktəblərin və sənətşünaslığın metodoloji axtarışlarından bəhrələnərək teatr maarifçiliyinin iki əsrlik tarixi mənzərəsini yaratmaq və bu fenomenin elmi-mədəni təkamülünün xronologiyasını təqdim etmək baxımından dissertasiya işinin nəzəri və metodoloji əsasını tarixilik, varislik, məntiqilik, sistemlilik və müqayisəli təhlil prinsipləri təşkil edir. Mədəniyyət hadisələrini real həyat dialektikası fonunda, tarixi qanunauyğunluqların, mütərəqqi təmayüllərin tələblərindən çıxış edərək real dəyərləndirməyə imkan verdiyi üçün dissertasiya işində sistemli kulturoloji təhlil metoduna daha geniş yer verilmişdir. Tarixi hadisə və mədəni proseslərin işıqlandırılmasında xronoloji ardıcıllığın saxlanılmasına xüsusi diqqət yetirilmiş, kulturoloji fikrin elmi-nəzəri qənaətlərindən, analoji araşdırmaların təcrübə və nəticələrindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi problemin Azərbaycan kulturoloji fikrində ilk dəfə monoqrafik şəkildə araşdırılmasından ibarətdir. Teatr maarifçiliyinə müxtəlif aspektli tədqiqatlarda toxunulsa da bu mövzu indiyədək kulturoloji kontekstdə dissertasiya səviyyəsində araşdırılmamışdır.

Tədqiqat işinin elmi yeniliyi də problemə belə bir sistemli yanaşma ilə müəyyən olunur və əsasən, aşağıdakı müddəalarda öz əksini tapır:

– Azərbaycan elmi fikrində teatr maarifçiliyi ilk dəfə olaraq bu tədqiqatda dissertasiya səviyyəsində kulturoloji amil kimi araşdırılmış, teatr mədəniyyətinin maarifçilik aspekti tarixi-kulturoloji proseslər kontekstində öyrənilmiş, maarifçilik hərəkatının bədi-estetik təminatı teatrın funksional aspektləri baxımından tədqiq edilmişdir. Teatral hadisələrin tarixinə ictimai-tərbiyəvi prizmadan yanaşılmış, maarifçilik dövrü teatrının səciyyəvi xüsusiyyətləri mütərəqqi ideyaların doğurduğu meyarlarla dəyərləndirilmişdir. Özünü maarifçilik fəaliyyətlərinin təzahürü kimi büruzə verən dünyəvi peşəkar teatrın təşəkkülü faktı da Azərbaycan ədəbi-mədəni mühitinin gerçəkliyi fonunda araşdırılmışdır. Cəmiyyətin yenilənməsi və mədəniləşməsi ehtiyacının təminatında məktəb və mətbuatla yanaşı teatrın təbliğati gücünü yüksək dəyərləndirən Azərbaycan maarifçilərinin bu incəsənət növünə dair kulturoloji baxışları ümumiləşdirilir.

– XX əsr Azərbaycan teatr maarifçiliyinin fərqli siyasi-ideoloji təsirlər şəraitində inkişaf dinamikası müqayisəli şəkildə təhlil edilmiş və elmi-nəzəri qənaətlərə gəlinmişdir. Çarizmin nisbi azadlıqları dövründə teatr maarifçiliyinin ideya-bədii istiqamətləri dramaturji əsərlərin səhnə təcəssümü, aktyor və rejissorların peşəkar fəaliyyətləri və teatr tənqidinin inkişafına istinadən müəyyənləşdirilir. Sovet hakimiyyəti illərində teatr maarifçiliyinin əsas inkişaf mərhələləri siyasi sistemin ideoloji təbliğatı və nəzarəti fonunda təhlil edilir. Teatr maarifçiliyinin dinamikası stalinizm, mülayimləşmə və yenidənqurma mərhələlərinin səciyyəvi və ümumi xüsusiyyətlərinin müqayisəsi əsasında təqdim edilir. Yeni teatrların yaranması və fərqli teatral təmayüllərin meydana çıxması ilə şərtlənən keçid dövrü maarifçiliyinin əsas problemləri təhlil edilir.

– Müasir dövrün teatr maarifçiliyi mədəni proseslər müstəvisində tədqiq olunur. Teatrşünaslığın müstəqil bir istiqamət kimi formalaşması və teatr xadimlərinin elmi yaradıcılıqları teatr maarifçiliyi aspektindən dəyərləndirilir. Azərbaycanda teatr təhsili sahəsində təşəbbüslər və institusional teatr təhsilinin təşəkkülünün elmi-tənqidi təhlili verilir. Teatr maarifçiliyində yaradıcılıq etikası məsələləri ümumi teatr estetikası, o cümlədən, aktyor və rejissor etikasının problemləri ilə vəhdət halında öyrənilir. Dövlət mədəniyyət siyasətinin prioritetləri baxımından teatr maarifçiliyinin perspektivləri dəyərləndirilir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat prosesində əldə olunan elmi qənaət və nəticələr tarixi təcrübənin tətbiqi baxımından praktiki mahiyyət kəsb edir. Tədqiqat işi təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma üsulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşıyır. Dissertasiya işi kulturoloqlar və teatrşünaslar üçün faydalı bir elmi mənbə ola

bilər. Araşdırma zamanı əldə edilmiş elmi nəticələrdən "Kulturologiya", "Teatr tarixi" kimi fənlərin, mədəniyyətlə bağlı kursların tədrisində, incəsənət profilli ali və orta ixtisas məktəblərinin müvafiq dərs proqramlarında istifadə etmək olar.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələri Azərbaycan və Rusiyanın elmi nəşrlərində ("Mədəniyyət dünyası", «ВЕСТНИК» Московского Государственного Университета Культуры и Искусств», «ПОИСК» – Международный журнал-приложение Республики Казахстан və s.) dərc olunmuşdur. Habelə, beynəlxalq elmi konfrans və simpoziumlarda dissertantın mövzu üzərindəki axtarışlarını əks etdirən məruzələri dinlənilmişdir.

**Tədqiqatın quruluşu.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət heyətinin qərarı ilə təsdiq edilmiş "Dissertasiyaların tərtibi qaydaları"na uyğun olaraq hazırlanmışdır. Dissertasiya işi giriş, üç fəsil, on yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I fəsli "Maarifçilik hərəkatının bədii-estetik təminatı baxımından teatrın funksional aspektləri"** adlanır. Bu fəslin **"Teatr mədəniyyətinin maarifçilik aspekti tarixi-kulturoloji proseslər kontekstində"** başlıqlı ilk yarımfəslində belə qənaətə gəlinir ki, incəsənətin bütün janr və formaları kimi teatr sənəti də bədii-estetik, elmi-mədəni, ictimai-siyasi təsirləri baxımından müəyyən vəzifələr daşıyır. Cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsi, insanların mədəni asudə vaxtlarının səmərəli təşkili, tamaşaçı və dinləyicilərin bədii-estetik zövqlərinin artırılması baxımından teatr sənətinin müəyyən sosial funksiyaları vardır. Şübhəsiz ki, həmin sosial funksiyalardan məhrum olan bir teatr humanist və mütərəqqi xüsusiyyətlərə, təsir gücünə malik ola bilməz. Bu mənada teatr sənətinin ən mühüm sosial vəzifələrindən biri onun maarifçilik funksiyası ilə bağlıdır ki, tarixən teatr mədəniyyəti qarşısında duran ilkin tələblərdən biri də məhz budur.

İnsanlarla ünsiyyət yaratmaq üçün teatr daha münasib, daha əlverişli incəsənət növü olaraq ən qədim dövrlərdən diqqəti cəlb etmiş, bir çox tədqiqatçılar teatr sənətini öyrənməyə, onun ictimai mövqeyini üzə çıxarmağa çalışmışlar. Çünki bütün dövrlərdə teatr həyatla sıx surətdə əlaqədar olmuşdur. İctimai həyatdakı ziddiyyətlər, mübarizələr, onların həlli əksər hallarda teatrda əks olunmuşdur.

Kütləvi şənliklər xalqın tarixini, onun mənəvi təkamülünü, təbiətə və cəmiyyətə münasibətini, dünyagörüşü və ictimai şüurunun yetkinlik sə-

viyyəsini göstərən sosial-bədii hadisə, sosial-mənəvi fenomendir. İnsanlar arasında ünsiyyət və birgəyaşayış qaydaları möhkəmləndikcə, xeyirlə şər anlayışı təzadlı obrazlar kimi dərk edildikcə, əmək növləri ilə əlaqədar olaraq yaranmış tamaşalar və rəqslər kütləvi xarakter aldıqca, bədii ifadə vasitələri təkmilləşdikcə mərasim tamaşaları bir o qədər şən və mütəşəkkil keçmiş, nəticə etibarilə günümüzə gəlib çatan bayram şənlikləri formasını almışdır.

Hər biri sosial hadisəyə çevrilmiş xalq tamaşalarının tədqiqi xalqların tarixi, dünyagörüşü, həyat tərzi və s. ilə bağlı bir sıra problemlərə aydınlıq gətirir. Məlum olur ki, bu teatrlaşdırılmış mərasimlərin təbiətlə və həyatla bağlılığı, onun dünyəvi mahiyyət kəsb etməsi həm bu kütləvi xalq şənliklərinin özünün məzmunca daha az təhriflərə məruz qalaraq nəsildən-nəslə ötürülməsini, həm də sosial hadisə kimi xalqın bədii-estetik təfəkkürünün inkişafını, teatral vasitələrlə xalqın tərbiyəsini və mədəni irsinin mühafizəsini şərtləndirmişdir.

Tarixən bütün bayram və mərasimlər mövsümlərlə bağlı keçirilmişdir ki, hər mövsüm mərasiminin özünəməxsus ssenarisi yazılmışdır. Bu ssenarilərdə mərasim iştirakçılarının harada durması, tədbirin necə təşkil edilməsi, oyunların necə qurulması, necə göstərilməsi, aktyorların, xorun çıxışları, tamaşanın forması yazılı şəkildə qeyd edilərmiş. Bu tədbirlər insanları dostluğa, mehribançılığa, dözümlüyə, çətinliklərdən qorxmamağa, çevik və cəsarətli olmağa, ağıllı və təmkinli olmağa çağırardı. Bütün ayin və mərasimlər real həyatla, cəmiyyət üzvlərinin həyatı, fəaliyyəti ilə bağlanar və əməli əhəmiyyət daşıyardı. Bu cür tədbirlərdə həmçinin tərbiyə işinə, icma həyatının qaydaya salınmasına, məhsulun vaxtında əkilməsinə, becərilməsinə, yığılması, hazırlanması və saxlanılmasına diqqət yetirilərdi. Deməli, xalq teatrı ünsiyyət və tərbiyə funksiyası daşımış, maarifləndirici mahiyyət kəsb etmişdir. Bu mənada teatr həmişə xalq məktəbi olmuş, şifahi təbliğat mərkəzi kimi hiss və duyğular vasitəsi ilə düşüncəyə təsir etmək imkanları ilə fərqlənmişdir.

**"Maarifçilik dövrü teatrının səciyyəvi xüsusiyyətləri"** başlıqlı ikinci yarımfəsildə diqqət belə bir məqama yönəldilir ki, cəmiyyət həyatının bütün sahələrinə nüfuz etmiş, siyasətdən incəsənətə, ailədən dövlətə, dəqiq elmlərdən humanitar sahələrə kimi təzahür edən maarifçilik hərəkatı dünyanın yeni tarixində mədəni intibaha səbəb olmuş və bu gün də öz ideya-estetik təsirlərini saxlamış əhəmiyyətli bir tarixi-mədəni hadisədir. Avropada təşəkkül tapmış və dünyanı öz ideya təsiri altında saxlamış maarifçilik hərəkatı uzun əsrlərdən bəri dialektik inkişaf yolu tutmuş insanlığın növbəti bir təkamül mərhələsi idi.

Maarifçilik dövrü terminini tarixə bəxş etmiş fransız dramaturqu M.Volterin 1718-ci ildə Paris səhnəsində böyük müvəffəqiyyətlə oynanılan "Edip" faciəsinin istər ictimai-siyasi, istərsə də fəlsəfi-etik mahiyyət baxımından inqilabi əhəmiyyəti olmuşdur. Volter bu məşhur əsərindən sonra yazdığı "Sezarın

ölümü", "Brut" əsərlərində də inqilabi ideyalar irəli sürmüş, ən əsası hakimiyyəti tənqidlə devirmək, bərabərlik, azadlıq şüarlarını səsləndirmişdi. Maarifçiliyin beşiyi sayılan Fransada qabaqcıl yazıçıların tarixi-inqilabi ruhlu ədəbi yaradıcılığına əsaslanan fransız ədəbiyyatı maarifçiliyin klassikası hesab edilmişdir. Volterin özündən əvvəlki yazıçılardan ən əsas fərqi teatr, səhnə sənətinin imkanları ilə bütün insanların eyni olduqları, onları yalnız mənəviyyat, əxlaq keyfiyyətlərinin ayırdığı ideyasını məhz maarifçilik dəsti-xətti ilə ifadə etməsilə izah olunur. Şillerin maarifçi dünyagörüşündə teatrın əhəmiyyətini ifadə edən fikirləri də maraqlıdır: "Mənəvi tərbiyələndirmə işində teatrın əhəmiyyəti nəhəng və çoxmənalıdır. Onun əhəmiyyəti əqli maarifləndirmə sahəsi ilə müqayisədə heç də az deyildir. Məhz burada – bu yüksək səviyyədə əsl vətənpərvər böyük ağıl qazana bilər". Teatrı "maarifçilik idarəsi" adlandıran F.Şiller mənəvi tərbiyə məsələsinin həllində teatrın üstün keyfiyyətlərini xüsusi vurğulayaraq deyirdi ki, "kütlə öz teatrı üçün maariflənməlidir. Əgər belə olmasa, teatr öz kütləsini maarifləndirə bilməz"[4]. Maarifçiliyin ən görkəmli fikir sahiblərindən biri hesab olunan alman maarifçi-estetiki Q.E.Lessinq isə din xadimlərinin teatrı "Düz cəhənnəmə aparan böyük yol" adlandırmaları ilə əlaqədar teatrın tərbiyəvi əhəmiyyəti məsələsi üzərində ciddi dayanır və dövrün bu estetik fəaliyyət sahəsinə məktəb mahiyyətində baxaraq maarifçi etik prinsiplərdən çıxış edirdi.

XIX əsrin I yarısı teatr sənətində romantizmin meydana gəlməsi, xüsusilə onun mütərəqqi rolunun qüvvətlənməsi ilə əlamətdardır. Bu dövr, dramaturqlardan C.Bayron, P.Şelli və K.Qutskovun, aktyorlardan E.Kin, Fredrik Lemetr və başqalarının yaradıcılığı üsyankarlıq ruhu, həqiqət axtarışları ilə səciyyələnir. Romantizm dövrü teatrına milli özünəməxsusluq, xəlqilik, tarixilik, ictimai tərəqqi uğrunda mübarizə ruhu hakimdir. XIX əsrin II yarısından Avropa və Rusiyada səhnə realizmi qüvvətlənmiş, teatrla ictimai həyat arasındakı əlaqələr sıxlaşmışdı. Bu dövr rejissor sənətinin formalaşması, tamaşalarda bədii ansambl və fikir birliyinin, ideya istiqamətinin yaranması ilə də əlamətdardır. Bu əlamətlər əsrin axırlarında rus teatrında daha qabarıq ifadə olunmuşdur. 1898-ci ildə təsis edilmiş Moskva Bədaye Teatrı səhnə sənəti tarixində yenilik olmuş, teatrın rəhbərləri – K.Stanislavski və V.Nemiroviç-Dançenko həyat həqiqətini və demokratizm prinsiplərini yaradıcılıq proqramı kimi irəli sürmüş və bu prinsiplərə cavab verən tamaşalar hazırlamışlar.

Tarixi qanunauyğunluq, şüurlarda müşahidə olunan etik-əxlaqi sıçrayış, inqilab mahiyyətində olan maarifçilik Fransanın qərb qonşuları kimi Şərqi də sürətlə öz ideya istiqamətinə cəlb etmişdir. Milli mədəniyyətlərin inkişafı, ağıl, tərəqqi dövrü dünyanın Şərq xalqları üçün bir tərəfdən asan, digər tərəfdən çox

---

[4] Шиллер Ф. Статьи по эстетики. М-Л.: 1935, с.7, 21.

çətin olmuşdur. İlk növbədə, ona görə ki, bu proses Şərqdə cərəyan edərkən onun təcrübi-nəzəri mənbəyi vardı, yəni Şərq maarifçiliyi qeyd-şərtsiz olaraq böyük Qərb maarifçilik məktəbinə əsaslanırdı. Ümumilikdə Şərq maarifçilik "məktəblərinin" ümumbəşəri və milli xüsusiyyətlərini nəzərdən keçirdikdə aydın olur ki, məzmununa görə milli əxlaq fəlsəfəsi və elmi mədəniyyət nəzəriyyəsi mahiyyəti ilə tanınan maarifçilik hərəkatı hər bir xalqın həyatında inqilabi-dəyişdirici təsirə malik olmuşdur. Maarifçilik bu və ya digər xalqın keçdiyi tarixi yolla bağlı olub, onun real ictimai-siyasi, sosial-mədəni həyat həqiqətlərini ifadə etmişdir. Güclü ideya yeniliyi, köhnənin tənqidi pafosunu daşıyan şüur hadisəsi olan maarifçilik bütün xarakteri ilə Şərq xalqlarının gələcək inkişafı üçün qanunauyğun bir proses idi.

Avropa, Rusiya və Şərq xalqlarının maarifçiliyi ilə müqayisədə Azərbaycan maarifçiliyinin mahiyyəti bütün aydınlığı ilə ortaya çıxır. Azərbaycanda maarifçilik XIX əsrin ikinci yarısında formalaşmış, elmi-nəzəri məzmunda, dolğun fəlsəfi-etik mahiyyətdə XX əsrin əvvəllərinə qədər davam etmiş, bu dövr Azərbaycan teatrı üçün də əlamətdar olmuşdur. M.F.Axundzadənin ədəbiyyatımıza dram janrını gətirməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynadı. Bu mənada peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının, bütövlükdə mənəvi mədəniyyətimizin bütün sahələrində "yeni dövr"ün banisi M.F.Axundzadənin çoxcəhətli yaradıcılığı ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb edir. O, teatra millətin aynası, onun yaşayışını əks etdirən sənət kimi yanaşdığı üçün qəzet, kitab və məktəbə nisbətən bu sahəyə daha çox diqqət yetirirdi: "teatr insanların ən tez alışa biləcəyi müəssisə idi"[5]. Bakıda ilk teatr tamaşaları göstərildikdən sonra isə dövrün qabaqcıl adamları – müəllimlər, yazıçılar, maarif və mədəniyyət xadimləri bu işin reallaşdırılmasının vacibliyini daha dərindən dərk etdilər və E.Sultanov, M.Sidqi, C.Məmmədquluzadə, M.Səfərəlibəyov, Ə.Haqverdiyev, F.Köçərli, B.Bədəlbəyov, R.B.Əfəndiyev və b. Qubada, Şəkidə, Naxçıvanda və digər yerlərdə teatr tamaşaları göstərdilər.

Mütərəqqi fikirli Azərbaycan ziyalılarının teatr yaratmaq səylərinin, onların qabaqcıl səhnə sənətinin inkişafı sahəsindəki fəaliyyətlərinin, qabaqcıl repertuar və realist aktyor oyunu uğrunda mübarizələrinin, eləcə də rejissor işi və bədii tərtibat sahəsindəki xidmətlərinin ümumi məzmunu bizə bunu deməyə əsas verir ki, bu dövr teatrında feodal məişətini, qaydalarını və hüququnu tənqid etmək, mövcud cəmiyyəti dəyişdirmək, maddi rifahı yüksəltmək üçün başlıca vasitə hesab olunan mədəni tərəqqi ideyaları xarakterik idi. XIX əsrin sonlarında Azərbaycan maarifçiliyində ictimai həyata tənqidi satirik münasibət güclənirdi;

[5] Kərimov İ.S. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı: Maarif, 2002, s.10.

ədəbiyyatda və incəsənətdə antifeodal ideya, məzmun özünü göstərirdi. Bu cəhət teatrın üslub xüsusiyyətlərində və metodunda nəzərə çarpırdı. Azərbaycan dünyəvi peşəkar teatrını həm də, bütövlükdə Avropa maarifçilik hərəkatının bir parçası hesab edə bilərik. Çünki, müasir teatrın funksional aspektlərinə, onun məqsəd və vəzifələrinə, bütövlükdə bu hərəkatın bədii-estetik təminatı baxımından yanaşdıqda da gəlinən qənaətlər özünü doğruldur.

**"Azərbaycanda dünyəvi peşəkar teatrın təşəkkülü maarifçilik fəaliyyətlərinin təzahürü kimi"** başlıqlı III yarımfəsildə göstərilir ki, Azərbaycan mədəniyyəti daim bəşəriyyətin mütərəqqi ideyaları ilə təmas halında tərəqqi edib. Müasir sənət sahələrinin, o cümlədən, teatr sənətinin təşəkkülü prosesinə diqqət yetirdikdə də xalqımızın nə dərəcədə modern mədəni yeniliklərə həssas olduğunun şahidi oluruq. Məhz bu baxımdan Azərbaycanda teatr maarifçiliyinin inkişaf dinamikasına da Avropa teatr mədəniyyətinin tarixi fonunda diqqət yetirilməlidir. Həm də ona görə ki, Azərbaycanda dünyəvi peşəkar teatrı bilavasitə Avropa teatral ənənələrindən təsirlənərək yaradılmışdır. Azərbaycan maarifçiləri də mənəvi tərəqqi, xalqın savadlanması, maarif, təhsil, qadın azadlığı məsələlərinin həllinə çalışır və öz ideyalarını həyata keçirmək üçün milli mətbuat, milli teatr, milli təhsil ocaqları yaratmaqla dövrün mədəni tələblərinə cavab verirdilər.

M.F.Axundzadənin xalq ruhunda, təbii sənət üsulunda yazılan səhnə əsərlərinin yaranması realist Azərbaycan teatr sənətinin inkişafına xüsusi təsir göstərmişdir. Azərbaycan teatr sənəti xalqın yaşayışından, onun ictimai, mənəvi, mədəni ehtiyaclarından doğmuş, onun ümumi inkişafı ilə bərabər artıb inkişaf etmişdir. Azərbaycan realist dramaturgiyasının yaranmasından az sonra teatrın yaranması xalqın mədəniyyətinin inkişaf etməsinə daha böyük təkan verdi. Artıq xalq teatrları meydandan, meydan teatr çərçivəsindən çıxıb, peşəkar səhnə sənətinə doğru irəliləyirdi. Teatr maarifçilərinin uğurları möhkəm bünövrədən və ictimai zəmindən güc alırdı. Azərbaycan teatrı ictimai-mədəni inkişafın təzahürü idi və xalqın ictimai-mədəni həyatında çox mühüm bir hadisə olmaqla bərabər, həm də dünya mədəniyyətinə uzanan bir körpü idi. Nisbi mədəni azadlıqlar qazandığı 1905-ci ilə qədər Azərbaycan teatrlarının fəaliyyəti nəzarətdə və çarizmin senzurası altında idi. Yalnız bu tarixi hadisədən sonra ictimai həyatda yeni bir dövr başladı, o cümlədən teatr maarifçiliyi yeni mərhələyə qədəm qoydu.

**"Azərbaycan maarifçilərinin teatr-estetik görüşləri"** adlanan sonuncu yarımfəsildə qeyd edilir ki, maarifçiliyin intişar tapdığı dövrdə Azərbaycanın mütərəqqi fikirli ziyalıları, eləcə də ayrı-ayrı şəhər və qəzalarda fəaliyyət göstərən mədəniyyət xadimləri səhnə sənətini inkişaf etdirməyə və eyni zamanda bu sahədəki irili-xırdalı müxtəlif problemləri həll etməyə çalışırdılar. Teatrın xalq həyatına, məişətə ciddi müdaxilə etməyə başladığı bir dövrdə

estafeti M.F.Axundzadə, H.Zərdabi və N.Vəzirovdan alıb uğurla davam etdirməyə çalışan Y.M.Həqnəzərov, M.M.Axundov, R.Əfəndiyev, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, M.Ə.Abbasov, Ə.Yüzbaşev, M.S.Kirmanşahlı kimi mədəniyyət xadimləri teatr sənətinin inkişafı uğrunda durmadan mübarizə aparırdılar. Xalqın azadlığı və səadəti üçün maarifin, mədəniyyətin böyük qüvvəsinə arxalanan, despotizmin, fanatizmin, ictimai və milli zülmün bütün təzahürlərinə qarşı çıxan, müxtəlif formalar, üslublar və yollarla özlərinin mütərəqqi ideyalarını, bəşəri fikirlərini yaymağa çalışan mədəniyyət xadimləri teatr sənətinin məna və mahiyyətini dərindən dərk edirdilər. Bu sənət vasitəsilə həyatda, cəmiyyətdə, ümumiyyətlə, insan zehnindəki hər cür naqisliklərə qarşı çıxır, insanları hər cəhətdən tərbiyə edib, azadlıq uğrunda mübarizəyə çağırırdılar.

Maarifçi ziyalılar teatrın inkişafı və bu sənətin bir sıra problemlərinin həlli ilə məşğul olaraq millilik, müasirlik, forma və məzmun məsələlərini dövrün tələbinə uyğun, özlərinin sənətə estetik münasibətləri baxımından izah edirdilər. Azərbaycan maarifçiləri də avropalı sələfləri kimi ən prinsipial məsələlərdə ortaq mövqedən çıxış edirdilər. Onlar ümumi dünyəvi mövqelərini ortaya qoyarkən, çıxış yolunu dini fanatizmin ifşasında, elmdə, maariflənmədə, şəxsiyyət azadlığında, bütünlüklə tərəqqidə görürdülər. Maarifçilər peşəkar səhnə sənətinin inkişafını təmin etmək, onun repertuar çətinliyini aradan qaldırmağa çalışırdılar. Təbii ki, getdikcə tamaşalara artan marağı gücləndirmək, repertuarı zənginləşdirmək, rejissor və aktyorların peşəkarlığını inkişaf etdirmək kimi problemlər ortaya çıxırdı. XX əsrin ilk illərində milli teatrın fədakar nümayəndələri çox çətin bir şəraitdə öz fəaliyyətlərini davam etdirirdilər. Dramaturji fəaliyyətindən, teatr proseslərinə maraq dərəcəsindən asılı olmayaraq, bütün maarifçi ziyalılar mütərəqqi yenilikləri dəstəkləyirdilər. Mədəni inkişafa və yeniliyə ehtiyac bütün ziyalılar tərəfindən təqdir edilirdi.

Maarifçi dramaturqların əksəriyyəti dram cəmiyyətləri, teatr tamaşaları təşkil edirdilər ki, burada aktyorların böyük bir hissəsi müəllimlərdən ibarət idi. Pyeslərdə əsasən cəhalət, nadanlıq, gerilik əleyhinə təbliğat aparılırdı. Yalnız Bakıda deyil, ayrı-ayrı bölgələrdə teatr yaradan və bu sahədə fədakarlıq göstərən mədəniyyət xadimlərinin maarifçilik ideyaları üstünlük təşkil edirdi.

XX əsrin ilk illərindən başlayaraq teatr işləri canlanmaqla yanaşı, onun ideya-siyasi mahiyyəti də xeyli aydınlaşır. Xalqın mədəniləşməsi, maariflənməsi yolunda çalışan teatr həvəskarları və ziyalılar insanları ölkədə baş verən ictimai-siyasi hadisələrə münasibət göstərməyə, haqsızlıqlara qarşı mübarizəyə səsləyir, bu və ya başqa yolla onlarda üsyankarlıq əhval-ruhiyyəsi yaradırdılar.

Azərbaycanda fəaliyyətə başlayan milli teatr truppaları ilə demək olar ki, eyni vaxtda Tiflisdə, İrəvanda, Cənubi Azərbaycanda, eləcə də Orta Asiyada da Azərbaycan teatr dəstələri meydana gəlmişdi. Həmin yerlərdə yaşayan azərbay-

canlı ziyalılar teatr yaratmaq, bu sənətin ecazkar qüvvəsi ilə xalq işinə xidmət etmək əzmində olmuşdular. Lakin Azərbaycan teatrının coğrafi hüdudları nə qədər geniş olsa da, teatr maarifçiliyinin ən qızğın təbliğatı təbii ki, Bakı şəhərində aparılırdı. Mədəni inkişafın sürəti və keyfiyyəti artdıqca teatrın janr, üslub, forma və məzmun mündəricəsi də zənginləşirdi. Artıq XX əsrin ilk illərindən etibarən bu sənət xadimləri teatr maarifçiliyi sahəsində uğurlu fəaliyyətləri ilə də seçilirdilər. Peşəkar teatrın təməlini qoymuş maarifçi dramaturqlar, eləcə də, C.Zeynalov, H.Ərəblinski, H.Sarabski, M.M.Kazımovski, Ə.Vəli, M.Əlvəndi kimi ustad aktyorlar teatra "Müqəddəs məkan", "Darulədəb", "Məktəb" kimi yanaşmış, bu sənətin maarifçilik və tərbiyəvilik missiyasını yüksək qiymətləndirmişlər. Xalqa xidmət etmək, onu maarifləndirmək və mədəniləşdirmək səyi tərəqqipərvər azərbaycanlı ziyalıları birləşdirən ən mühüm stimulverici amil olmuşdur. Teatr maarifçiliyi uğrunda xidmət göstərmiş bu ziyalılar xalqın azadlığı və qurtuluşu üçün maarifin, mədəniyyətin, böyük qüvvəsinə arxalanırdılar.

Dissertasiyanın **II fəsli "Teatr maarifçiliyinin inkişaf dinamikasına təsir edən siyasi-ideoloji amillərin tarixi-müqayisəli təhlili"** adlanır. "**XX əsrin əvvəllərində teatr maarifçiliyinin ideya-bədii istiqamətləri**" başlıqlı ilk yarımfəsildə vurğulanır ki, dünyada və regionda olduğu kimi, Azərbaycanda da ictimai-siyasi və tarixi-mədəni hadisələrlə zəngin olan iyirminci yüzillik teatral mühitin ziddiyyətli inkişafı baxımından səciyyəvidir. Azərbaycan teatrının inkişafına siyasi-ideoloji amillər kontekstində baxıldıqda teatr maarifçiliyinin dinamikasındakı fərqliliklər, xüsusilə, tərəqqi və tənəzzül halları diqqəti çəkir. Məsələyə tarixi-müqayisəli prizmadan yanaşdıqda bir-birini əvəzləyən bir neçə mərhələnin, daha doğrusu, teatrın inkişafını şərtləndirən fərqli siyasi-ideoloji amillərin olduğunu görürük. Əsrin əvvəllərində Rusiyanın təbəəsi halında olan Azərbaycan xalqı 1918–1920-ci illərdə öz müstəqil dövlətini qurur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonrakı 70 illik bir müddət ərzində cəmiyyət həyatının bütün sahələri sovet ideologiyasının təsir dairəsində olur.

Birinci rus inqilabından sonra bərqərar olmuş yeni sosial-iqtisadi, mənəvi-mədəni, elmi-texniki inkişaf səviyyəsi maarifçilik üçün əlverişli şəraitin təminatçısı rolunda çıxış edirdi. Böyük maarifçi H.B.Zərdabinin atdığı toxumlar cücərmiş, maarifin əhəmiyyətini dərk edən və bunun üçün maddi dəstəyini əsirgəməyən milli burjuaziyanın varlığı reallığa çevrilmişdi. Eyni zamanda xalqın maariflənməsi yolunda hər cür məhrumiyyətə sinə gərən maarifpərvər, savadlı milli pedaqoji kadrlar yetişmişdi. Çətinliklərlə müşayiət olunmasına baxmayaraq, getdikcə din xadimləri arasında dini və dünyəvi elmlərin birgə öyrənilməsinin həyati zərurət olduğunu qəbul edənlərin sayı artırdı.

Bu illər Azərbaycan teatr maarifçiləri üçün böyük sınaq dövrü oldu. Cəmiyyətin ictimai şüurunun inkişafında böyük rolu olan teatr sahəsi ciddi nəzarət altında saxlanılırdı. Oynanılan tamaşalar, yazılan səhnə əsərləri diqqətlə yoxlanılırdı. Üstəlik, teatr işçiləri arasında ixtilaflar getdikcə ciddi şəkil alırdı. Bununla yanaşı, 1905-ci ildən sonra Azərbaycan teatrının ən qüvvətli aktyorları milli teatr mədəniyyətini, səhnə sənətini yaymaq, inkişaf etdirmək məqsədilə qastrol səfərlərinə çıxır, Azərbaycan teatrını ən uzaq yerlərə aparır, hətta bir çox qonşu ölkələrdə səhnə sənətinin əsasını qoyur, teatr truppaları yaratmaq təşəbbüsündə olurdular. 1905-ci il inqilabından sonra Azərbaycan teatrının fəaliyyətindəki mübarizə ruhu daha aydın bir şəkil almış, inqilabi pafosu xeyli qüvvətlənmiş, estetik mahiyyəti dərinləşmişdi.

1900–1918-ci illərin teatr prosesi çox dinamik və rəngarəng idi və ən başlıcası dünya teatr prosesi ilə yaradıcı təmas şəraitində baş verirdi. Səhnəyə çoxlu tərcümə əsərləri gəlir, müxtəlif truppaların qastrolları təşkil olunur, mətbuat teatr hadisələrini geniş işıqlandırır, teatr tənqidi fəal işləyirdi. Bir sözlə, teatr prosesinin institusional şərtləri bu prosesin də başlıca ideya-məzmun istiqamətinin müstəmləkə düşüncəsindən müstəqil düşüncəyə tərəf olduğunu sübuta yetirirdi. Bu proses milli azadlıq hərəkatının bədii-yaradıcı forması olaraq milli mədəniyyətin teatr düşüncəsini zənginləşdirirdi, yeni janr və problemlərin mənimsəməsinə geniş imkanlar açırdı.

1919-cu il oktyabrın 24-də Cümhuriyyətin bütün dövlət və hökumət rəhbərlərinin iştirakı ilə Dövlət Teatrının rəsmi açılışı oldu. Cümhuriyyət dövründə Dövlət Teatrı səhnəsində opera, musiqili teatr tamaşaları, xalq musiqisindən ibarət konsertlər keçirilməklə yanaşı, ondan mühüm dövlət tədbirləri üçün istifadə etmək də nəzərdə tutulurdu. Zülfüqar və Üzeyir Hacıbəyli qardaşları truppasının bütün tədbirləri Dövlət teatrının səhnəsində keçirilirdi. Bununla belə, Cümhuriyyət dövrü teatrının inkişafı düzxətli olmamış, əksinə, müxtəlif ziddiyyətlər fonunda baş vermişdir. Dövrün qabaqcıl fikirli ziyalıları teatr prosesini diqqətlə izləyir, yeni tamaşaları barədə, eləcə də, köhnə repertuarda olan əsərləri yenidən tamaşaya hazırlayan rejissor və aktyorlar barədə fikirlər söyləyir, öz obyektiv və prinsipial rəyləri ilə teatrın inkişafına təsir göstərirdilər. Mütərəqqi teatr tənqidinin qənaəti belə idi ki, sənət cəmiyyətə, xalqa, insanlara xidmət etməli, onların həqiqəti dərk etməsinə, tərəqqi və inkişafına, səadətinə və kamilləşməsinə kömək göstərməlidir.

II fəslin **"Sovet hakimiyyəti illərində teatr maarifçiliyinin əsas inkişaf mərhələləri"** başlıqlı ikinci yarımfəslində göstərilir ki, bu mərhələdə teatr maarifçiliyi daha çox siyasi-ideoloji mahiyyət kəsb etməklə, bir sıra cəhətləri ilə klassik teatr maarifçiliyinin məqsədlərindən uzaqlaşdı. Bu mənada, yetmiş illik bir dövrü əhatə edən sovet teatrının inkişaf dinamikası daha çox

nailiyyətlərlə məhrumiyyətlərin, demokratik düşüncə ilə totalitar ideologiyanın ziddiyyətləri fonunda nəzərdən keçirilir. Belə bir ideoloji təzad, qısa müddətli müstəqillik şəraitində yaşamış Cümhuriyyət teatrı ilə yetmiş illik sovet dövrü teatrının ideoloji prinsiplərində özünü daha aşkar büruzə verir. Sovet hakimiyyətinin möhkəmlənməyə başladığı ilk günlərdən Azərbaycan teatrları yalnız yeni quruluşu mədh edən, saxta təriflər söyləyən ideya silahına çevrilirdi. Halbuki, Cümhuriyyət dövründə teatrların inkişaf perspektivləri fərqli təmayüllərlə proqnozlaşdırılırdı.

Qısa bir müddətdə dövrün ictimai-siyasi, iqtisadi vəziyyəti teatra öz təsirini göstərdi və dövlət strukturu ona ciddi müdaxilə etdi. Senzor nəzarəti artır və partiyanın diqtəsi güclənirdi. Sənət adamlarından bir çoxu çaş-baş qalmışdı. Bəziləri yeni ideoloji tələblərə uyğun olaraq öz mövqelərini müəyyənləşdirmiş, bəziləri isə yalnız həqiqi sənətkar kimi çıxış etməyi üstün tutmuşdular.

Getdikcə tamaşaçıların tərkibi də dəyişir və onların tələbatı çoxalırdı. Savadlanmağa, mədəni səviyyələrini yüksəltməyə çalışan bu tamaşaçıların teatra münasibətləri dəyişirdi. Onlar tamaşalarda öz istədiklərini, arzu etdiklərini, gündəlik həyat məsələlərini görmək istəyirdilər. Ölkənin mənafeyi bu dövrdə əksərən savadsız və dindar olan kütlələr içərisində təbliğat-təşviqat və mədəni-maarif işini gücləndirməyi vacib tələb kimi qarşıya qoyurdu. Geniş kütlələri özünə cəlb edə bilən, siyasi cəhətdən kəskin, təsirli bir teatr lazım idi. Beləliklə, satira və təbliğat teatrını yaratmaq ideyası doğdu və 1921-ci il noyabr ayının 13-də Bakıda "Tənqid-təbliğ teatrı" fəaliyyətə başladı. Öz forması ilə o vaxta kimi bütün Şərqdə yeganə olan bu teatr bir sıra istedadlı aktyor, rejissor və dramaturqları öz ətrafında birləşdirə bilmişdi. Fəaliyyətində ideoloji məqsədlərin olmasına baxmayaraq teatr maarifçiliyinə geniş yer ayıran bu teatr, xalq kütlələri arasında yeni tipli sənət ocağı kimi fəaliyyətə başladı.

İncəsənətin qarşısına yeni tələblər qoyulduğu bir zamanda teatr kollektivləri də öz yaradıcılıq üslublarında dəyişikliklər etmək məcburiyyətində qaldılar. Böyük tarixi hadisələrin təsiri altında xalqın duyğu və düşüncələrini düzgün istiqamətə yönəltmək, onu narahat illərin sağlam tələbləri ruhunda tərbiyələndirmək sahəsində teatr, şübhəsiz, böyük əhəmiyyət kəsb edirdi. Sovet hakimiyyəti illərində Azərbaycan teatrı yad ideoloji təsirlərə məruz qalsa da, öz milli varlığını qoruyub saxlaya bilmiş və respublikanın mədəni həyatında fəal rol oynamışdır. Azərbaycan teatrının coğrafiyası tədricən genişlənərək respublikanın demək olar ki, bütün bölgələrini əhatə etməşdi.

Azərbaycan teatr xadimləri sovet ideologiyasına səmimiyyətlə xidmət edəedə, həm də Azərbaycan teatrının milliliyini, xalq ənənələri müstəvisində forma-

laşmış özəl cəhətləri də ön planda saxlamağı bacarırdılar[6]. Bu mənada Ə.İskəndərov, M.Məmmədov, T.Kazımov kimi rejissorlar, adətən o dramaturqlarla işləyirdilər ki, milliliklə yanaşı, onların əsərləri dövrün ideoloji tələblərinə zidd olmasın. Təbii ki, müharibə respublika teatrlarının yaradıcılıq həyatının ritmini dərhal dəyişmişdi. Daxili yaradıcılıq həyatını yenidən qurmaq, repertuarı təmizləmək, günün tələbinə uyğun tamaşalar yaratmaq, kütlələr arasında geniş təbliğat işi aparmaq, cəbhədə, qospitallarda, kolxoz tarlalarında və sənaye müəssisələrində konsertlərlə çıxış etmək üçün böyük təşkilatçılıq bacarığı və çevikliyi lazım idi. Teatrın böyük və mürəkkəb qayğıları içərisində birinci yeri repertuarın güclü bir vətənpərvərlik baxımından yenidən nizama salınması məsələsi tuturdu. Müharibədən sonrakı dövrdə də sənət adamları bir müddət, əsasən, o dövrün ideoloji tələblərinin təsiri altında işləmiş və sosial sifarişləri nəzərə almaqla fəaliyyət göstərmişlər. Bununla belə, bədii-estetik dəyərini itirməyən qiymətli sənət nümunələri də yaranmışdır. Müharibə qurtarandan sonra partiya Sovet dramaturgiyası və teatrı sahəsindəki işlərin vəziyyətinə müdaxilə etdi. Lakin şəxsiyyətə pərəstişin dəf edilməsi xalqın təşəbbüskarlıq roluna daha böyük sərbəstlik verdi, insanla cəmiyyət arasında əlaqələrin zənginləşməsinə səbəb oldu. Buna uyğun olaraq estetik təsəvvürlər də dəyişdi, sənətin təsvir vasitələri daha böyük əlvanlıq kəsb etdi. Durğunluq dövrü də teatra təsirsiz qalmadı, bütün ideoloji təzyiqlərlə yanaşı, bu dövr teatrının müsbət istiqamətləri də var idi. Bir çox məhrumiyyətlər, siyasi-ideoloji sıxıntılar və demokratik yaradıcılıq təmayülləri mənasında, itkilərlə müşayiət olunmasına baxmayaraq, yetmiş illik Azərbaycan sovet teatrının keçdiyi inkişaf yoluna və qazandığı uğurlara kölgə salmaq qeyri-mümkündür.

**“Keçid dövrü teatr maarifçiliyinin əsas problemləri”** adlı III yarımfəsildə qənaətlər bundan ibarətdir ki, ümumilikdə Azərbaycan teatr prosesi həm də milli mübarizə tarixini özündə əks etdirir. Bu tarix, yaradıcılıq uğurları ilə zəngin olan mübarizə meydanıdır. Azərbaycan teatr maarifçiləri – dramaturq, aktyor və rejissorlar ideoloji yanaşmaların kəskin şəkildə fərqləndiyi hər bir mərhələdə sənət meyarlarından çıxış etməyə çalışmışlar. Onlar teatrın tərbiyəvi mahiyyət kəsb edən bir mədəniyyət ocağı olduğunu təsdiqləmiş, teatr mədəniyyətinə marağı olan yeni nəsil nümayəndələrinin yaradıcı və peşəkar şəxsiyyətlər kimi yetişmələrini özlərinə müqəddəs vəzifə hesab etmişlər. Bu mənada Azərbaycan teatr maarifçiliyi tarixinə universal və dinamik bir proses kimi baxılması sovet dövrü teatr prosesinin də obyektiv qiymətləndirilməsinə imkan verir.

[6] Novruzova R.İ. Azərbaycan mədəniyyətində Ədil İskəndərovun teatr məktəbinin yeri. Sən. ü. fəl. dok. ... dis. avtoreferatı. Bakı: AMEA-nın Mərkəzi Elmi Kitabxanası, 2009, s.11-14.

Yoxsa, bolşevik istilasından sonrakı milli teatr prosesinin ideoloji aspektləri onun institusional səciyyələrini kölgədə qoyub yanlış nəticələrə gətirib çıxarır.

90-cı illərdə ictimai-siyasi, sosial-iqtisadi vəziyyət teatrın durumunu nəinki gərginləşdirir, hətta onun mövcudluğunu belə şübhə altına alırdı. Lakin bununla yanaşı məhz bu illərdə Azərbaycan teatrı yaşamağa, inkişaf etməyə və hətta maraqlı axtarışlar aparmağa əzmli olur. Teatr prosesindəki sönüklüyə rəğmən, sonrakı hadisələrin gedişatı sübut etdi ki, 70 illik sovet dövrü minilliklərə bağlı olan milli sənət təfəkkürü və düşüncəsinə köklü təsir göstərə bilmədi. Heç şübhəsiz, hər bir dövrdə tarixi-siyasi gedişat, cəmiyyətin ictimai-sosial dəyişiklikləri teatrın yaradıcılıq prosesinə, iqliminə və eyni zamanda onun qurumuna, təsisatının xarakterinə də təsir göstərdi. 90-cı illərdə teatr axtarışları, müstəqillik uğrunda mübarizənin gərginliyinə və Qarabağ konfliktinin yaratdığı problemlərə baxmayaraq, əvvəlki illərlə müqayisədə keyfiyyətcə tamamilə yeni mərhələyə qədəm qoydu. Məhz bu dövrdə teatr gəncliyinin və teatr mütəxəssislərinin axtarışlara və hər cür eksperimentlərə olan marağı gücləndi, hətta respublikada qısa fasilələrlə eksperimental tamaşa festivalları keçirildi. Azərbaycanda cərəyan edən teatr prosesinin mündəricəsinə uyğun şəkildə yeni teatrlar açıldı. Bu, həm subyektiv, həm də obyektiv səbəblərlə izah olunur. Aydın məsələdir ki, 90-cı illər sənət meydanına öz teatr liderlərini çıxarırdı ki, bu da teatr axtarışlarının istiqamətini müəyyənləşdirməyə imkan verirdi.

90-cı illərdən başlayaraq yeni əsrin teatr ideyalarının əsası qoyulur, onun gələcək konsepsiyasının ilkin rüşeymləri formalaşırdı. Dövlət müstəqilliyinin bərpası isə milli teatrın inkişafı üçün geniş perspektivlər və yeni imkanlar açdı. Bununla yanaşı keçid dövrünə xas olan dağıdıcı proseslər, həm sosial-ictimai, həm də fərdi xarakterli köhnə təsəvvürlərin alt-üst olması mədəniyyətin bu sahəsinin inkişafına mənfi təsir göstərdi. Baş verən hadisələr fonunda teatr xadimləri teatrın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi yolunda fədakarlıqla çalışırdılar. Nəticədə Azərbaycan teatrlarının çox ciddi, ağır və çoxsaylı problemlərlə üzləşdiyi keçid dövründə ayrı-ayrı teatrlar fəaliyyət qabiliyyətlərinə görə kəskin şəkildə bir-birindən seçilməyə başladılar.

Dissertasiyanın III fəsli **“Müasir mədəniyyət prosesləri və teatr maarifçiliyi: problemlər və perspektivlər”** adlanır. Fəslin **“Teatr maarifçiliyinin elmi və pedaqoji aspektləri”** başlıqlı ilk yarımfəslində gəlinən nəticə budur ki, teatr maarifçiliyinin inkişaf tarixini teatr tənqidi və teatr təhsilindən ayrı tədqiq etmək mümkün deyildir. Peşəkar və institussional səciyyə daşımadığı dövrlərdə belə, əslində həm teatr tənqidi, həm də teatr təhsili səhnə sənətinin ayrılmaz tərkib hissəsi olmuşdur. Avropa maarifçilik dövrü teatr mədəniyyətindən bəhrələnən Azərbaycan ziyalıları da səhnə sənətinnin inkişafında elmi və pedaqoji amillərin roluna diqqət yetirmişlər.

Təşəkkül tapdığı ilk dövrlərdən dünya teatr prosesinin tərkib hissəsinə çevrilməkdə olan Azərbaycan teatrının yaradıcıları səhnə sənəti qarşısında duran məqsəd və vəzifələrin doğru-düzgün müəyyənləşdirilməsinə çalışmışlar. Dövri mətbuatda nəşr olunan məqalə və resenziyaların sayı artdıqca, oradakı məlumatlar da, fikirlər də genişlənir, təhlilə meyl artır. Bu məqalə və resenziyalar ən etibarlı və dürüst mənbə kimi teatr həyatında baş verən hadisələr, göstərilən tamaşalar, qastrol səfərləri barədə məlumata malik olmaqla yanaşı, həm də tamaşaların bədii keyfiyyəti, aktyor ifası, rejissor işi haqda da fikirlər söyləyir. Realist teatr sənəti, qabaqcıl səhnə mədəniyyəti uğrunda mübarizə aparan teatr tənqidi əvvəlki illərə nisbətən təsvirçilikdən, primitivlikdən uzaqlaşır.

1920-ci ildən sonra tədricən teatrşünaslıqda formalaşmağa başlayan sovet teatrı estetikası hələ peşəkarlaşmasa da, səhnə sənətinə, dramaturgiyaya, rejissor və aktyor yaradıcılığına dərindən bələd olan ədəbiyyatşünaslar, dramaturqlar, nasirlər, şairlər, jurnalistlər, dilçi alimlər, hətta inzibati işdə çalışan siyasi xadimlər teatr prosesini izləyir, onu mətbuatda bütün canlılığı ilə təcəssüm etdirməyə çalışırdılar. Artıq onların yazılarında tamaşanın və ya pyesin peşəkar təhlilinin dərinliyi özünü göstərirdi. 1930–1950-ci illərdə Azərbaycanda teatr tənqidi ilə Ə.Şərif, M.Rəfili, M.Arif, H.Mehdi, Ə.Sultanlı kimi ədəbiyyatşünaslar məşğul olsalar da, sırf teatrşünaslıq meyarları baxımından Azərbaycan sovet teatrının təşəkkülü və inkişafında C.Cəfərovun və M.Məmmədovun xüsusi xidmətləri olmuşdur. Nəzəri hazırlığa, professionallığa malik olan bu teatr xadimlərinin yaradıcılığı teatr sənətinin inkişafına öz müsbət təsirini göstərirdi ki, onların məqalə və resenziyaları teatrımızın ümumi yüksəliş yolunu əks etdirməklə yanaşı, teatrımızın tarixini, yaradıcılıq qayğılarını öyrənmək baxımından da dəyərlidir. C.Cəfərov teatr estetikasına dərindən bələdliyi, obyektivliyi, nəzəri hazırlığı, resenziya janrı vasitəsilə bütün tamaşanın poetikasını açmağa qadir olması baxımından diqqət mərkəzində dururdu. O, milli teatrşünaslığın konseptual inkişaf istiqamətlərinin əsl elmi məcraya düşməsində əhəmiyyətli işlər görmüş və İ.Kərimov, İ.Rəhimli, İ.İsrafilov, M.Əlizadə, A.Talıbzadə kimi professional teatrşünasların yaradıcılıqlarına təkan vermişdir.

Teatr maarifçiliyinin elmi inkişaf istiqamətləri ilə yanaşı, pedaqoji fəaliyyətin təşkili və qazanılmış təcrübənin ötürülməsi məsələsi də mühüm əhəmiyyət daşıyır. Elmi-pedaqoji ədəbiyyatda teatr sənəti sahəsində peşəkar artist, rejissor, rəssam, teatrşünas və işçilər hazırlayan təhsil sistemi, ümumilikdə teatr təhsili adlanır və heç şübhəsiz, teatrın sosial həyatda öz ictimai, bədii-estetik funksiyasını yerinə yetirməsi ilə əlaqədar teatr tədris məktəbləri cəmiyyət qarşısında böyük məsuliyyət daşıyır. Teatr təhsili problemlərinə daha əvvəllər də diqqət yetirilməsinə baxmayaraq, Azərbaycanda teatr təhsilinin tarixi Bakı Dövlət Teatr Texnikumunun (1923) yaradılması ilə başlayır. 1946-cı ildə Bakı Teatr Texnikumunun bazasında

Teatr İnstitutu yaradılır, bu təhsil ocağında milli teatrşünas kadrların yetişdirilməsinə başlanılır və tədricən formalaşmağa başlayan Azərbaycan teatr-şünaslığı öz yeni mərhələsinə qədəm qoyur. Sonrakı illərdə teatr pedaqogikası sahəsində təşkilati proseslərlə yanaşı tədris, təlim-tərbiyə işində də irəliləyişlər baş verirdi. Elmi-metodik ədəbiyyatların yazılması və nəşrinə, tədris repertuarının rəngarəngliyinə, janr müxtəlifliyinə diqqət artırılır, ölkənin başqa ali məktəbləri ilə əlaqələr yaradılırdı. Artıq elmi-tədqiqat və yaradıcılıq ifa işlərinin səviyyəsini və səmərəliliyini yüksəltmək məqsədilə müəllimləri ittifaqın aparıcı ali məktəblərinə ixtisasartırma kurslarına göndərirdilər. Həmçinin, müntəzəm olaraq tələbə elmi-nəzəri konfransları, müsabiqə və festivallar təşkil olunurdu. Müstəqilliyin bərpasından sonra bu sahədə elmi axtarışların, araşdırmaların aparılması daha fəal xarakter almışdır.

III fəslin **"Teatr maarifçiliyində yaradıcılıq etikası məsələləri"** başlıqlı ikinci yarımfəslində belə nəticəyə gəlinir ki, teatrın təşəkkül tapdığı vaxtdan bu günə kimi yaradıcılıq etikası bu sənətin əsas funksiyalarından biri hesab olunmaqdadır. Bu funksiyanın layiqincə həyata keçirilməsi üçün təbii ki, bacarıqlı, yüksək ixtisaslı kadrların, teatr kollektivləri rejissorlarının, mədəniyyət sahəsində müxtəlif mütəxəssislərin yetişdirilməsinin böyük əhəmiyyəti vardır. S.M.Qənizadə, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, S.S.Axundov, S.Axundzadə, Ü.Hacıbəyli, E.Sultanov, H.İ.Qasımov, H.Minasazov və S.Hüseyn kimi dramaturq və tənqidçilərin səhnə sənəti haqqındakı fikir və düşüncələri onların zəngin teatr-estetik görüşlərində öz əksini tapmışdır. Onlar avam camaatı teatra cəlb edib, teatrı xalqa yaxınlaşdırmaqla yanaşı, həm də teatr sənətinin nəzəri məsələlərini irəli sürür, onları dövrün, milli gerçəkliyin qanunauyğunluqları ilə əlaqəli şəkildə şərh edirdilər. Komiklik, faciəvilik, ülvilik, ideyalılıq, müasirlik, forma və məzmun haqqında, eləcə də səhnə sənətindəki, aktyor ifasındakı təbiilik, həyatilik, canlılıq barədə öz fikir və tələblərini irəli sürürdülər.

Teatr tarixində K.Stanislavski, V.Nemiroviç-Dançenko, V.Meyerxold, G.Tovstonoqov, N.Petrov, A.Popov, B.Zaxava, H.Ərəblinski, İ.Hidayətzadə, M.Haşımov, A.Tuqanov, A.İskəndərov, T.Kazımov, M.Məmmədov kimi yaradıcılıq etikasının mahiyyətinə dair dəyərli fikirlər söyləmiş sənət biliciləri olmuşlar. Yaradıcılıq estetikası, teatr pedaqogikasında əxlaq normaları – etika məsələləri bu teatr xadimlərini daima düşündürmüş və bununla bağlı bir çox dəyərli fikirlər söylənilmişdir. Maarifçilər teatrda tərbiyə və əxlaq normalarına, yeni səhnə kadrlarının yetişdirilməsinə və gənc nəslin tərbiyəsi məsələsinə xüsusi diqqət yetirmişlər. Tarixən maarifçi ziyalıların yüksək meyarlarla yoğrulmuş teatr-estetik görüşləri onların güclü, humanist vətəndaşlıq hissləri ilə bağlı olmuşdur. Onların fikrincə, teatr sənəti cəmiyyətin mənəviyyatına və düşüncəsinə təsir

etməli, insanlarda yüksək hisslər oyatmalı və tamaşaçıları haqq işi uğrunda mübarizəyə qaldırmağı bacarmalıdır. İnsanın daxili aləminə, əqlinə və şüuruna təsir göstərən teatr yaradıcılıq etikasının gücü ilə tərbiyəedici və maarifləndirici funksiyasına sadiq qalmalıdır.

**“Azərbaycanda teatr maarifçiliyinin inkişafı dövlət mədəniyyət siyasətinin prioritetlərindən biri kimi”** başlıqlı üçüncü yarımfəsildə göstərilir ki, bu gün müasir dünyanın mədəni mənzərəsini yaradan hadisələrin gedişi dövlət mədəniyyət siyasətində teatr maarifçiliyinin yeri və roluna yeni meyarlarla baxmağı tələb edir. Mədəni dünya beynəlxalq problemlərə, ekoloji təhlükələrə, kriminal hadisələrə, siyasi münaqişələrə və dünyanın bir sıra regionlarında özünü büruzə verən müharibə ocaqlarına qarşı etiraz səsini mədəniyyət və incəsənət vasitəsilə ucaltmağa üstünlük verir ki, heç şübhəsiz, insanların sülh və əmin-amanlığa çağırışlarında teatr maarifçiliyinin də önəmli rolu vardır. Yarandığı gündən bu günə kimi, mütərəqqi teatr sənətinin fəaliyyətləri bəşəriyyətin xoşməramlı və xoşniyyətli məqsədlərinə yönəldilmişdir ki, Azərbaycanda da bu fəaliyyətlər dövlət mədəniyyət siyasətinin tərkib hissəsi kimi qəbul edilir. Bu gün milli teatrımızın inkişafı üçün perspektivlər açılmışdır və teatrlar müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Dövlətin teatrın inkişafına qayğısı teatrlardakı yaradıcılıq mühitinə, dramaturq, rejissor və aktyorların sənətkarlıq qabiliyyətlərinin üzə çıxarılmasına şərait yaratdığı kimi, həm də yeni-yeni elmi tədqiqatların yazılmasına da stimul vermişdir.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir, əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir:

– Teatr maarifçiliyinin bütün yüksəliş mərhələləri özündən əvvəlki teatral nailiyyətlərdən qidalanaraq növbəti səmərəli dəyişikliklər üçün zəmin hazırlamışdır. Deməli, müasir teatr da sənətkarlıq boyalarını, ifadə vasitələrini daim inkişaf etdirməklə yaradıcılıq fəaliyyətini zənginləşdirməlidir. Teatr maarifçiliyinin universal ideyalarına sadiq qalan hər bir teatral hadisə, hər bir teatr tamaşası ənənə və novatorluğun sintezinə əsaslanaraq yeni nəslin zövq qaynağı və tərbiyə mənbəyi olmalıdır. Bugünkü teatrın maarifçilik xətti də daim dəyişən və zənginləşən müasir insanın düşüncəsi, arzu və əməlləri ilə birlikdə yeniləşməlidir. Yoxsa müasir dünyanın ictimai-siyasi və bədii-estetik tələblərini dərk edə bilməyən teatr tamaşaçılardan ayrı düşər, onun ifadə tərzi ilə tamaşaçıların dünyabaxışı arasında anlaşılmazlıq yaranar və nəhayətdə teatr həyatdan ayrıldığı kimi, tamaşaçılar da teatrdan ayrılar. Çünki zəifləyən teatr prosesində qarşılıqlı dərketmə bağları da incəlir, tamaşaçıların teatral hissləri, teatra olan maraq və istəkləri primitivləşir ki, nəticədə sənət və sənətkarlıq meyarları aşınmaya məruz qalır.

– Teatr maarifçiliyinin effektivliyi sənətin gözəlliyini, zamanın ritmini, onun gətirdiyi yeniliyi duymaq bacarığı ilə sıx əlaqədardır. Teatrın müasirliyi – onun zamanla qarşılıqlı rabitə yarada bilməsində və mənəvi-əxlaqi, bədii-estetik dəyərləri obrazlı şəkildə əks etdirməsindədir. Tarixi təcrübə təsdiqləyir ki, müasir cəmiyyətin ictimai-tərbiyəvi ideallarını mənimsəyərək təqdim edən və daim mütərəqqi yeniliklərə meylli olan teatr maarifçiliyi öz hədəflərinə doğru irəliləmişdir.

– Xalqın ictimai, siyasi idealını, arzu və istəyini ifadə edən müasir Azərbaycan teatrı daim maarifçilik və müasirlik mövqeyində durmaqla, tamaşaçıların əqidə və idealını, humanizmini, əməllərini tərənnüm etməklə yanaşı, inkişafa mane olan eybəcərlikləri ictimai qınaq hədəfinə çevirməyə can atır. Bu mənada teatr bu məqsədləri yolunda aktyor və rejissor nəslinin bir-birini vaxtında əvəzetmə prosesinə daim qayğı göstərməli, yüksək mədəniyyətli, dərin həyat duyumuna malik olan istedadlı gənclərin sənətkar kimi formalaşmalarına səy və təşəbbüs göstərməlidir.

– Bu günün teatrı hətta öz repertuarına daxil etdiyi tarixi əsərlərə də müasirlik kontekstindən yanaşmalıdır ki, tamaşaçıların zövqünü oxşaya və mənəvi tələbatlarını təmin edə bilsin. İnsanı öyrənən, onun arzu və idealını, mənəvi-əxlaqi problemlərini bədii və obrazlı şəkildə canlandıran müasir teatrın gücü – xalqla təmasda olmasında, cəmiyyətin mənəvi problemlərini öz yaradıcı fəaliyyətində əks etdirə bilməsindədir.

– Tərbiyəvi mahiyyətə, aydın ifadə tərzinə, zəngin ədəbi-bədii əsaslara, hiss və duyğulara təsir göstərəcək emosionallığa malik olmayan teatr daim dəyişməkdə olan yeni tələb və meyarlar fonunda cazibə qüvvəsini itirər. Yalnız klassik bəşəri dəyərlər, insani münasibətlər və milli-əxlaqi meyarlar uğrunda mübarizə aparan bir teatr öz fəaliyyətində humanizmə və demokratik dəyərlərə xidmət etmiş olar.

– Müasir teatr qloballaşan dünya prosesləri ilə harmoniyada fəaliyyət göstərməlidir ki, bədii-estetik zövqün tərbiyəsi də səmərəli olsun. Teatr maarifçiliyinin müasir tələblər səviyyəsində qurulması və zamanı duyub qabaqlaya bilən dramaturqların, aktyor və rejissorların mədəni prosesi dərindən dərk etmələri üçün yüksək mədəniyyət, böyük təcrübə və istedad tələb olunur. Yalnız reallığa və gerçək yaradıcılıq təxəyyülünə əsaslanmaqla teatr maarifçiləri tamaşaçıların bəşəri duyumunu və bədii-estetik zövqünü yüksəldə bilərlər. Bunun üçün isə teatr maarifçiliyi müasir kulturoloji dəyərlər mövqeyindən qiymətləndirilməli, teatrın yaradıcılıq mövqeyi daim zənginləşməli və mədəniyyət siyasətinin prioritet vəzifələrinə əsaslanmalıdır.

– Teatrın bugünkü yaradıcılıq nailiyyətləri varislik ənənələrinə əsaslanır. Lakin keçilmiş yollara və ənənəyə yaradıcı yanaşma olmasa teatr prosesi mütərəqqi istiqamət ala bilməz. Teatr maarifçilərinin təcrübəsini, əvvəlki nəsillərin sənətkarlıq irsini yaradıcılıqla mənimsəmədən, bu irsi tədqiq edib araşdırmadan nə səhnə mədəniyyətini inkişaf etdirmək olar, nə də teatr maarifçiliyinin vəzifələrindən irəli gələn fəaliyyətləri. Öz sənətkarlıq ideallarına yaradıcılıqla yanaşan bir teatr, həm də tamaşaçılar arasında müasir dünyanın və cəmiyyətin həyat problemlərini tərənnüm etməlidir.

– Mədəniyyət quruculuğu kontekstində ümumi elmi-maarifçilik işi aparılarkən teatr maarifçiliyinin elmi perspektivləri baxımından da prioritetlər müəyyənləşdirilməlidir. Bu sahədə ictimai-tərbiyəvi düşüncənin yenidən formalaşan sosial-mədəni idealın tələblərinə uyğun surətdə istiqamətləndirilməsi üçün mədəniyyət müəssisələri şəbəkəsinin, təhsil qurumlarının və kütləvi informasiya vasitələrinin fəaliyyət proqramlarının strateji maarifçilik hədəflərinə uyğunlaşdırılması və bütün bu sahələrdə maarifçilik işinin koordinasiya halında tənzimlənməsi zəruridir.

– Təbii ki, müvafiq elmi-mədəni mühit formalaşdırılmadan teatr maarifçiliyi də səmərəli inkişaf xətti ilə genişləndirilə bilməz. Bütün hallarda teatrın inkişafının təminatçısı kimi maarifçilik prosesinin davamlı olması zərurəti qaçılmazdır. Yalnız maarifçilərin deyil, mədəniyyət quruculuğu prosesinin iştirakçısı olan bütün insanların universal kulturoloji bilikləri mənimsəməsi, teatr incəsənətinin tərbiyə və zövq baxımından faydaları haqqında lazımi informasiyalara yiyələnməsi çox vacibdir. Bütövlükdə cəmiyyətin teatr maarifçiliyi prosesinə qoşulması üçün təbliğat və təşviqat işinin daha elmi əsaslarla aparılmasına çalışılmalıdır. Bu sahədə qazanılmış təcrübə və uğurlar da gələcəyə məhz bu meyarlarla yanaşmanı təsdiqləyir. Artıq dövlət mədəniyyət siyasətinin prioritetlərinə müvafiq olaraq bu gün Azərbaycan teatrı Avropa, Şərq, həmçinin, milli teatr ənənələrini yaşatmaq istiqamətli bir inkişaf yolu tutmuşdur. Bu mənada Azərbaycan mədəniyyətinin müasir inkişaf dinamikası teatr maarifçiliyinin də işıqlı perspektivlərindən xəbər verir.

## Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Mədəniyyət sahəsində hüquqi təminatlar və stimullaşdırıcı amillər. ADMİU-nun Elmi Əsərləri, № 12, Bakı, 2011, s.78-86.
2. Kulturoloji tədqiqatlarda sistemlilik problemi (T.Əfəndiyevin "Mədəniyyətdə tarixilik və müasirlik" əsərinin nümunəsində). "Mədəniyyət dünyası", elmi-nəzəri məcmuə, XXII buraxılış, Bakı: ADMİU, 2011, s.31-35.

3. Mədəniyyətdə tarixilik və müasirlik problemi (T.Əfəndiyevin eyniadlı əsəri haqqında). "Dayanıqlı inkişaf və idarəetmə modelləri: nəzəriyyə və praktika" mövzusunda Beynəlxalq Konfransın Tezisləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Lənkəran Dövlət Universiteti, 23-25 dekabr 2011-ci il, s.88-91.
4. Mədəniyyətə dövlət qayğısı və bu sahənin qanunvericilik təminatı. "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafi" mövzusunda I Bakı kulturoloji konfransının Proqramı və məruzənin mətni, 24 dekabr 2011-ci il.
5. Teatr mədəniyyətinin maarifçilik aspektinə dair. Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları (2011-ci il 21-22 dekabr). Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Müəllimlər İnstitutu. Bakı, 2012, Müəllim nəşriyyatı, s.410-413.
6. Teatr mədəniyyətinin maarfifçilik aspektlərinə dair. Mədəniyyət: Problemlər və perspektivlər. ADMİU-nun 90 illiyinə həsr olunmuş doktorant və gənc tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransının materialları. Bakı, Sabah nəşriyyatı, 2012, s.18-19.
7. Heydər Əliyevin kulturoloji konsepsiyasının əsas istiqamətləri. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş III Beynəlxalq Elmi Konfransın Materialları. AMEA Humanitar və İctimai Elmlər Bölməsi; Bakı Slavyan Universiteti, Bakı 2-5 may, 2012, s.478-480.
8. Azərbaycanda teatr maarifçiliyi. ADMİU-nun Elmi Əsərləri. Bakı, 2013, № 15, s.24-31.
9. Azərbaycan teatr mədəniyyəti maarifçilik hərəkatı kontekstində. "Mədəniyyət dünyası", elimi-nəzəri məcmuə, XXV buraxılış, Bakı: ADMİU, 2013, s.29-33.
10. Teatr maarifçiliyinin kulturoloji aspektləri. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları, II cild. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, 2013, s.231-233.
11. К истории Азербайджанского театра. Язык, культура, этикет в современном полиэтническом пространстве. Материалы III Международное научное конференции, Нальчик, 2013, стр. 177-180.
12. Kütləvi şənliklərdə xalq ruhunun teatral tərənnümü. ADMİU-nun Elmi Əsərləri. Bakı, 2014, № 17, s.72-77.
13. Teatr ünsürlərinin mənşəyinə kulturoloji bir baxış. "Mədəniyyət dünyası", elimi-nəzəri məcmuə, XXVII buraxılış, Bakı: ADMİU, 2014, s.51-56.
14. Из истории развития театрального искусства в Азербайджане в контексте просветительского движения. «ВЕСТНИК» Московского Государственного Университета Культуры и Искусств, 2014, № 3, стр. 228-232.
15. Teatrın maarifçilk funksiyasına dair. Mədəniyyət: problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların VIII Beynəlxalq Elmi Konfransının materialları (Konfrans Azərbaycanın xalq yazıçısı, Respublika Dövlət Mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 100 illiyinə həsr olunmuşdur). Bakı, ADMİU, 2014, s.50-51.
16. Просветительский контекст образования профессионального театра в Азербайджане. «ПОИСК» – Международный журнал-приложение Республики Казахстан. Серия гуманитарных наук. № 4 (1) / 2015, с.76-82.

**Kamala Nariman gizi Mamedova**

## Theater enlightenment as culturological factor

### SUMMARY

The research work consists of an introduction, three chapters, ten half-chapters, summary, with an indication of bibliography. The introduction substantiates the relevance of the topic, the scientific novelty of the research, goals and objectives, the methodological basis, scientific and practical significance. In the first chapter titled "The functional aspects of theater from the point of figurative - aesthetic maintenance of theater enlightenment" the attention is drawn to the history of theater enlightenment. The influence of European theater enlightenment on Azerbaijan is learned, the enlightenment aspect of theater art is researched in the context of historical-cultural processes. The typical peculiarities of the theater of enlightenment period are analyzed from a historical-comparative aspect. The formation of secular-professional theater in Azerbaijan is introduced as a manifestation of the enlightenment activities. The theater-aesthetic views of Azerbaijani enlightenments are searched in accordance with the historical sources.

The second chapter of the Research work, titled "The analysis of the influence of political- ideological factors on the dynamic of the development of the theater enlightenment in the historical comparison". The political-ideological factors historically influenced to the theatrical processes are drawn to the attention in this chapter. The ideological and artistic directions of Azerbaijan theater enlightenment in the beginning of the XX century are clarified. The main development stages of theater enlightenment during the Soviet period are looked over. The main problems of transition period of Azerbaijan enlightenment are investigated.

In the third chapter of the research, "Modern cultural processes and theater enlightenment: problems and perspectives", are learned the science of the Azerbaijan theater enlightenment, ideological and ethical problems in the context of the cultural processes. İn this chapter are investigated the science of the theater enlightenment and the history of the pedagogical aspects and their modern situation, and also the issues of creative ethics in the theater enlightenment. The development of theater enlightenment in Azerbaijan is presented as one of the priorities of state culture policy.

The final part of the research summarizes the main provisions of the study. Suggestions and proposals are given in accordance with the results of the research work.

**Камалья Нариман кызы Маммедова**

**Театральное просвещение как фактор культурологии**


## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, десяти подглав, заключения, с указанием списка использованной литературы. Введение обосновывает актуальность темы, научную новизну исследования, цели и задачи, методическую основу и научно-практическое значение. В первой главе диссертации «Функциональные аспекты театра, с точки зрения литературно-эстетического обеспечения движения просвещения», уделяется внимание истории театрального просвещения. Изучается влияние формированного театрального просвещения Европы на Азербайджан. Аспекты просвещения театральной культуры исследуются в контексте культурно –исторических процессов. Характерные особенности театра в период просвещения анализируются в историческом сравнении. Ссылаясь на исторические источники, исследуются театрально-эстетические встречи Азербайджанских просветителей.

II глава диссертации называется «Анализ влияния политико-идеологических факторов на динамику развития театрального просвещения в историческом сравнении». В этой главе на первый план выносятся политико-идеологические факторы, исторически влияющие на театральные процессы. Освещается идейно-художественное направление Азербайджанского театрального просвещения начала XX столетия. Просматриваются основные этапы развития театрального просвещения в годы советской власти, основные проблемы Азербайджанского театрального просвещения в переходной период.

В III главе диссертации, «Современные культурные процессы и театральное просвещение: проблемы и перспективы», изучается наука Азербайджанского театрального просвещения, идеологические и этические задачи в контексте культурных процессов. Исследуюся наука театрального просвещения и история педагогических аспектов и их современное положение, изучаются задачи творческой этики в театральном просвещении. Развитие театрального просвещения в Азербайджане представляется как важный приоритет государственной культурной политики.

В заключительной части диссертации обобщаются основные положения исследования. Ссылаясь на выводы, полученные в результате исследования, даются предложения и рекомендации.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

*На правах рукописи*

**КАМАЛЬЯ НАРИМАН кызы МАММЕДОВА**

# ТЕАТРАЛЬНОЕ ПРОСВЕЩЕНИЕ КАК ФАКТОР КУЛЬТУРОЛОГИИ

**6219.01 – Культурология и её общие вопросы**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание учёной степени**
**доктора философии по искусствоведению**

**ВАКУ – 2016**